Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**KİVDF**

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"**

# Vətən uğrunda fəda olmuş qardaşlar

## Sovet hökuməti Əliabbas Müznib və Əmin Abidin taleyinə də acı sonluq yazmışdı

**1803-cü ilin fevralında knyaz Pavel Sisianov Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı təyin olunur. Onun baş komandan təyin edilməsi Zaqafqaziyanın, o cümlədən Azərbaycanın işğalını daha da sürətləndirir. 1806-cı ilin fevral ayında Sisianov qoşunu ilə Bakıya doğru hərəkət edir. Bu haqda tədqiqatçı alim, qocaman yazıçı Qılman İlkin yazırdı: "Sisianovun qoşunlarının qalanı mühasirəyə alması şəhər əhalisi içərisində böyük təşvişə səbəb olur. Bir azdan xanın nümayəndəsi qaladan çıxıb əlində gətirdiyi qala açarlarını və duz-çörəyi Sisianova təqdim edir. General duz-çörəyi qəbul edir, açarları isə geri qaytararaq deyir: "Mən istəyirəm ki, açarları Hüseynqulu xan şəxsən özü mənə təqdim etsin".**

...Hüseynqulu xan öz yaxın adamları ilə birlikdə içəridən çıxır. Sisianov onları görən kimi polkovnik Eristovla birlikdə qoşundan qabağa çıxır. Onları təkcə bir kazak müşayiət edir. Hüseynqulu xan açarları Sisianova təqdim edərkən İbrahim bəy arxadan güllə ilə Sisianovu vurub öldürür. Xanın o biri adamları isə polkovnik Eristovu öldürürlər. Təkcə onları müşayiət edən kazak qaçıb aradan çıxa bilir. Sisianovun öldürülməsindən sonra onun əsgərləri qala divarlarının üstündən gülləyə tutulur, ölən ölür, ölməyən pərən-pərən düşür. Hüseynqulu xanın adamları aranın qarışmasından istifadə edərək, Sisianovun başını kəsərək qalaya aparırlar".

Sisianovun bu şəkildə öldürülməsi hökumətin daha amansız tədbirlərə əl atmasına səbəb olur. Görkəmli mətbuatşünas alim, filologiya elmləri doktoru İslam Ağayev yazırdı: "Bu hadisə Bakı əhalisi üçün böyük faciələrə səbəb oldu. Çarizmin işğalçı cəza dəstələri xalqı qılıncdan keçirdi. Qətliam şəhərdə həftələrlə davam etmişdir. Colum-cocuqlara kimi hamı qılıncdan keçirilmişdi. Hüseynqulu xanın bütün nəsli çar qoşunları tərəfindən şiddətli cəzalara düçar oldu, Hüseynqulu xan isə Sibirə sürgün edildi".

Amma çar hökuməti yanılırdı ki, bir nəsli, bir ailəni qırmaq, məhv etmək olar, lakin bir xalqın qəlbindəki azadlıq, vətənpərvərlik eşqini söndürmək mümkünsüzdür. Yeni-yeni Hüseynqulular yetişəcək və Hüseynqulu xan kimi hərəkət edərək "qonağa" həddini bilməyi öyrədəcək...

* * *

Əliabbas Müznib və Əmin Abid kimi yüzlərlə oğullarımız xalqın milli azadlığı uğrunda mübarizədə canlarını qurban verdilər. Onlar da ulu babaları Hüseynqulu xan kimi tökülən hesabsız qanların qurbanına çevrildilər. Kim idi bu qardaşlar? Dövrünün tanınmış şairi, publisisti, naşiri, tərcüməçisi, tədqiqatçısı və ən əsası, başdan-ayağa xalqının, vətəninin azadlığı uğrunda canını fəda edən VƏTƏN OĞULLARI!

Əhmədov Əliabbas (Müznib) Mütəllib oğlu 1883-cü ildə Bakıda anadan olub. O, məşhur Hüseynqulu xanın (Hüseynqulu xan Əliabbasın və Əmin Abidin ulu babası olub) nəslindən idi. İlk təhsilini evdə anası Reyhan xanımdan alan Müznib dini təhsilini mədrəsədə başa vura bilmir. 1892-ci ildə Bakıda başlanan vəba xəstəliyi səbəbindən ata-anası Abşeron bağlarına köçdükləri üçün onun təhsili yarımçıq qalır. Sonra da ailənin cətin dolanışığı ucbatından atası Mütəllib kişinin yanında daşyonan, xarrat, araba düzəldən işləyərək ata-bala bir parça çörəklərini "daşdan çıxarır"lar. Əliabbas ömrü boyu yüksək təhsil almaq üçün calışsa da, kasıblıq üzündən buna nail ola bilmir.

Güclü hafizəyə malik olan Müznib müstəqil mütaliə yolu ilə fars və ərəb dillərini öyrənir. Daima mütaliə edən Müznib 1905-ci ildən sonra daha çox ədəbi fəaliyyətlə məşğul olmağa başlayır. Əliabbasın ilk yazıları "Şərqi-Rus" qəzetində, ilk şeiri isə 1907-ci ildə "Təzə həyat" qəzetində çap olunur. Məhəmməd Əmin Rəsulzadə (deyilənə görə, onunla bir məhəllədə yaşayıb və ana tərəfdən qohumluq əlaqələri olub, qardaşı Abid də "Əmin" təxəllüsünü M.Ə.Rəsulzadənin şərəfinə götürüb), Mirzə Ələkbər Sabir, Seyid Hüseyn, Abbasqulu Kazımzadə (o zaman Bakıda ən məşhur kitab mağazası Abbasquluya məxsus olub), Məmmədəli Rəsulzadə və Kərbəlayi Vəli Mikayılov (Z.Marağayinin "İbrahimbəyin səyahətnaməsi"ni fars dilindən ilk tərcümə edən publisist) kimi milli düşüncəli ziyalılarla dostluq əlaqələri Əliabbasın həyatında bir darülfünun rolunu oynayır və illər sonra nəinki universitet, hətta adi məktəb təhsili belə almayan Əliabbas dövrünün tanınmış tərcüməçisi, publisisti, naşiri, jurnalisti, şairi kimi tanınır.

Ədəbi yaradıcılığa "Molla Nəsrəddin"in təsiri ilə başlayan Ə.Müznibin Azərbaycan mətbuatında xüsusi xidmətləri olmuşdur. O, ilk olaraq jurnala "Mürtəd" və "Bambılı" imzaları ilə bir necə kiçik yazılar göndərir. "Molla Nəsrəddin"lə yaxınlığı onu M.Ə.Sabirlə dostlaşdırır. Dahi şairlə yaxınlıq Əliabbasın əsərlərində üslub baxımından aşkar bir dəyişiklik yaradır. Müznibin şeir dili mürəkkəb ərəb-fars tərkiblərindən təmizlənir. Üslubunda publisist ahəng güclənir.

Beləliklə, "Molla Nəsrəddin"in təsiri ilə yaranan "Babayi-Əmir" (1914-1916) və "Şeypur" (1918-1919) satirik jurnallarının redaktoru və naşiri olan Ə.Müznibin ilk satirik yazısı 1909-cu ildə "Zənbur" jurnalında işıq üzü görüb. Jurnala yenilik gətirən Ə.Müznibi 1910-cu ilin əvvəllərində Əbdülxalıq Axundov jurnala baş redaktor təyin edir. Bu hadisə Ə.Müznibin bir şair və publisist kimi inkişafında uğurlu bir hadisəyə çevrilir. Ə.Müznib ədəbi aləmdə daha da püxtələşir, tanınır, şöhrətlənir.

1910-cu ildə türkçülük və islamçılıq rəmzi olan "Hilal" qəzetinin, 1911-ci ilin əvvəlində isə eynilə bu qəzetin ideya xəttini davam etdirən "Şihabi-saqib" jurnalının nəşrinə nail olur. Hər iki mətbu orqanının ömrü çox qısa olsa da, xalqın milli şüurunun oyanmasında mühüm rol oynayırlar. Hətta bu iki mətbu orqanın çapına görə onun "Tiflis sudebnaya palata məhkəməsinin qərarı ilə Sibirə sürgünə göndərilməsi qət edilib həbs edilir. Əliabbas Müznib cinayət qanunnaməsinin 129-cu fəsli mövcibinə görə təhdi-məsuliyyətə alınır".

"Xalqı dövlətə qarşı üsyana çağırmasına görə" əbədi olaraq Sibirə sürgün olunan Ə.Müznib 1913-cü ilin əvvəllərinə kimi sürgündə olur. Bu sürgündə nə qədər çətin bir həyat yaşasa da, yenə öz amalından dönmür. 1912-ci ildə ömür-gün yoldaşı Səriyyə xanıma yazdığı məktubda "Vətən övladıyam zülm-zillət istirahətdir mənə" deyə vətən, millət yolunda çəkdiyi bəlaları bir istirahət adlandırır. Xoşbəxtlikdən bu dəfə tale onun üzünə gülür. Romanovlar sülaləsinin 300 illiyi zamanı elan olunmuş ümumi əfvlə əlaqədar o, 1913-cü ilin iyulunda vətənə qayıdır.

Ə.Müznibin vətənə gəlişi bəzi "soydaş"larının ürəyincə olmur. O, guya məqalələrində dini tənqid edir, ruhaniləri ələ salır. Odur ki, Şeyx Molla Qəni tərəfindən Ə.Müznibin ölümünə fitva verilir. Dövrün vətənpərvər ziyalılarının köməkliyi ilə Əliabbas bu bəladan da qurtula bilir.

Bu dəfə o, Azərbaycan ictimai-siyasi həyatında bir oyanış yaradan "Dirilik" jurnalının nəşrinə nail olur. 1914-cü ildə fəaliyyətə başlayan "Dirilik" xalqını müasir dünyaya qovuşmağa çağırır. Bu çağrış elmə, maarifə, azadlığa aparan yol idi. Yeri gəlmişkən, qeyd edək ki, məhz "Dirilik" jurnalındakı fəaliyyətlərindən sonra M.Ə.Rəsulzadə və onun silahdaşları "Açıq söz" qəzetinin nəşrinə nail oldular.

Cümhuriyyətin qurulmasından ruhlanan Ə.Müznib "Azərbaycan", "İstiqlal", "Bəsirət" qəzetlərində dövlətçilik ideyalarını fərəhlə təbliğ edirdi. "Azərbaycan" qəzetində bir-birinin ardınca çap olunan "Azərbaycan istiqlalı", "Azərbaycan təfriqəsi", "Türk birlik ilə yaşamış və böylə də yaşayacaqdır", "Türk ulusu olmaq birliyi", "Türk imperatorluğu elxanlığı" adlı məqalələri buna misal ola bilər. "Yaşıl qələm" ədəbi birliyinin fəaliyyətində yaxından kömək edən Ə.Müznib bu illərdə "Övraqi-nəfisə" və "Şeypur" jurnallarına da redaktorluq edib.

Bir çox millətpərəst, vətənpərvər ziyalılarımız kimi Ə.Müznibin də qara günləri Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra başlayır. Müznib hökumətin "qara siyahı"sına düşür. Çünki ulu babanın qisası nəvələrindən alınmalı idi. Özü də çox amansızcasına! Lakin hökumət hələ bu cəzaya tələsmirdi. Hələlik Müznibə mənəvi və maddi cəza verməkdən zövq alırdı. 1926-cı ildə 44 yaşında təqaüdə göndərilən Müznibə heç yerdə iş "tapılmır". Beş övladı, qoca ata-anası ilə bircə otağa sığınan Müznibin əsl qara günləri başlayır.

**Hüseynqulu xan açarları Sisianova təqdim edərkən İbrahim bəy arxadan güllə ilə Sisianovu vurub öldürür. Xanın o biri adamları isə polkovnik Eristovu öldürürlər. Təkcə onları müşayiət edən kazak qaçıb aradan çıxa bilir. Sisianovun öldürülməsindən sonra onun əsgərləri qala divarlarının üstündən gülləyə tutulur, ölən ölür, ölməyən pərən-pərən düşür. Hüseynqulu xanın adamları aranın qarışmasından istifadə edərək, Sisianovun başını kəsərək qalaya aparırlar".**

Yenə "sapı özümüzdən olan baltalar" işə düşür. 1935-ci ildə Azərbaycan Yazıçılar İttifaqının sədri olan Məmməd Kazım Ələkbərli yazırdı: "Əli Abbas Müznib vətənpərvərlik sərsəmləmələri məcmuəsi buraxır, məcmuənin əsas fikri erməniləri kəsmək lazımdır... Bu kimi sərsəmləmələrlə millətçi Ə.Müznib Azərbaycanı bu ruhda müdafiə və xilas edir..." (Bax: M.K.Ələkbərli. Azərbaycan ədəbiyyatı. Bakı, 1935, səh.15).

Onlarla bu məzmunda olan yazı və çıxışlardan sonra Əliabbas və ailəsindən köhnə qisasın alınmasının ən dəhşətli anları başlayır. 1936-cı ilin 12 dekabrında gecə Ə.Müznibin evində axtarış aparılır və onu həbs edirlər. İstintaq 25 iyun 1937-ci ildə başa çatır. Ə.Müznib "burjua-millətçi, bolşevizim əleyhinə iş aparmasına, öz əsərlərində Bakı kommunasına, xüsusən də Şaumyana böhtan atmasına, Türk-Osmanlı qoşunlarının Bakıya gəlməsini alqışladığına görə ittiham edilib həbs olunur".

O, SSRİ DİXK yanında Xüsusi Müşavirənin 27 avqust 1937-ci il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum edilir. Cəmi bir il sürgündə "yaşayan" Ə.Müznib 28 avqust 1938-ci ildə Vladivostokdakı xüsusi məntəqədə vəfat edir.

Müznibin vəfatı xəbərindən cəmi bir ay 21 gün sonra qardaşı Əhmədov Əmin Abid Mütəllib oğlu (Əmin Abid) Azərbaycan SSRİ DİXK-nin 19 oktyabr 1938-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilir və 21 oktyabrda əmr yerinə yetirilir.

Şura hökuməti iki oğul övladını belə fəlakətlə məhv etməklə 90 yaşlı Mütəllib kişidən və 75 yaşlı Reyhan anadan çar hökumətinin köhnə qisasını alır.

Bəs Əmin Abid kim idi? Zeynalabdin Mütəllib oğlu Əhmədov -Mütəllibzadə (Əmin Abid-Gültəkin) Əliabbas Müznibin kiçik qardaşı, ədəbiyyatşünas alim, tədqiqatçı, şair-jurnalist idi.

Zeynalabdin 1898-ci ildə Bakıda anadan olub. Böyük qardaşı Ələbbas kimi o da ilk ibtidai təhsilini evdə anası Reyhan xanımdan alıb. Sonra III Aleksandır adına oğlanlar üçün olan gimnaziyada təhsilini davam etdirib. Burada rus dilində təhsil alan Zeynalabdin daha mükəmməl təhsil üçün Türkiyəyə ketməyə hazırlaşsa da, Birinci Dünya müharibəsinin başlanması ona mane olur.

Gimnaziyada təhsilini başa vuran Zeynalabdin 13-14 yaşında qardaşı Əliabbasın yanında "Babayi-Əmir" jurnaında işə başlayır və sonra "Dirilik", "İqbal" "Açıq söz", "Bəsirət" kimi qəzet və jurnallarda çap olunur. Bu zaman o özünə M.Ə.Rəsulzadənin şərəfinə "Əmin" təxəllüsü götürür və "Əmin Abid", "Abid Mütəllibzadə", "Abid Alp Mütəllib oğlu" imzası ilə tez bir zamanda tanınmağa başlayır.

Əmin Abidin Türkiyədə təhsil almaq arzusunu Azərbaycan Xalq Cümhuriyyəti hökuməti reallaşdırır. 1919-1925-ci illər ərzində İstanbul Universitetində təhsil alan Əmin Abid həm Türkiyənin dövri mətbuatı ilə əməkdaşlıq edir, həm də tanınmış türkoloq M.F.Köprülünün rəhbərliyi ilə elmi iş müdafiə edir. Təhsillə yanaşı Türkiyədə arxivlərdə elmi-tədqiqat işi aparan Ə.Abid M.Füzulinin "Söhbətül əsmar" adlı əsərini ilk dəfə tapıb aşkara çıxarır və elmi ictimaiyyətin ixtiyarına verir.Türkiyədə Əmin Abid yalnız "Gültəkin" təxəllüsü ilə şeirlər yazır. Bu şeirlərdə o, daha üsyankar, daha döyüşkən ruhda türkçülüyü, millətçiliyi təbliğ edirdi.

1926-cı ildə Əmin Abid Bakıya qayıdır. O zaman ölkədəki siyasi vəziyyət onu şairlikdən, jurnalistlikdən bir qədər uzaqlaşdırır. Ə.Abid bu dəfə əsasən elmi- tədqiqat işləri və pedaqoji fəaliyyətlə məşğul olur. Axundovşünas, qorqudşünas alim kimi tarixə düşür. "Kommunist" və "Şərq qadını" mətbu orqanlarında çap olunan yazılarının demək olar ki, əksəriyyəti M.F.Axundova, "Dədə Qorqud" dastanına, əlifba islahatına həsr etdiyi məqalələridir.

Yazını sona yetirərkən bir daha hər ikisinin istintaq materiallarına diqqət yetirdim. Həmişəki kimi yenə qəribə və dəhşətli bir "fakt"la üzüzə qaldım. Bu sənədlərdən belə bəlli olur ki, "Əliabbas Müznib istintaq zamanı "pantürkist təşkilatın üzvü" kimi qardaşı Əmin Abidin adını çəkib. Onu satıb, ələ verib. Bax bu idi sovet hökumətinin siyasəti...



**Qərənfil Dünyamin qızı**
**Filologiya üzrə fəlsəfə doktoru,**
**Əməkdar jurnalist**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***